**UDC:** 1 (091).
**LBC:** 86.39
**MJ №** 226
10.33864/2617-751X.2024.v7.i3.134-144

# On Huseyn Huseynzade and His Work "Bayan al-haqq"

**Javanshir Alibeyli***
**Aslan Habibov****

**Abstract.** In the 19th and 20th centuries, Tsarist Russia was implementing a policy of Christianization over Muslim population in the occupied territories, forcing them to forget their national identity and language. This policy was also directed against the Muslim Turkic population of the South Caucasus. In this effort, Tsarist Russia later enlisted the support of the Armenian population, which had been settled on the Turkic, Muslim lands of the Caucasus, ancient Azerbaijan. The Armenians readily contributed to this policy. The intelligentsia and bourgeoisie of our people were aware of Tsarist Russia’s colonial policies and utilized the opportunities of the time and circumstances in their struggle. This struggle was mainly carried out in the field of education, as Tsarist Russia's colonial policy was implemented through educational means.

Despite the pressure from Tsarist Russia, the national intelligentsia, with the financial support of the bourgeoisie, established schools in many parts of Azerbaijan where education was in Turkic. “Nashri Maarif” was one of such schools. Huseyn Huseynzade was one of the contributors to this institution, a scholar-educator who made significant contributions to the education of his people.

Huseyn Huseynzade lived in the city of Shusha in Karabakh in the second half of the 19th and early 20th centuries. He was the director of one of the schools in Shusha, which operated under the society “Nashri Maarif.”

The article provides information about his life and work, as well as his book “Bayan al-haqq,” which addresses responses to the treatise by the Armenian orientalist Amir Khanyans, who claimed that the Quran had been distorted.

**Keywords:** Huseyn Huseynzade, Quran, Bayan al-haqq, distortion, Amir Khanyans.

---

* Master's student of the Azerbaijan Institute of Theology; Baku, Azerbaijan (corresponding author)
E-mail: cavansirelibeyli1994@gmail.com
https://orcid.org/0009-0000-8349-6280
** Doctor of Philosophy (Ph.D) in Theology,
Leading researcher of the Institute of Oriental Studies named after Academician Ziya Bunyadov of ANAS; Baku, Azerbaijan
E-mail: aslanhabibov@ait.edu.az
https://orcid.org/0000-0002-3016-3324

**To cite this article:** Alibeyli, J., & Habibov, A. [2024]. On Huseyn Huseynzade and His Work "Bayan al-haqq". *“Metafizika” journal, 7*(3), pp.134-144.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.134-144

***Article history:***
*Received: 17.05.2024*
*Accepted: 08.07.2024*

**УДК:** 1 (091).
**ББК:** 86.39
**MJ №** 226
10.33864/2617-751X.2024.v7.i3.134-144

# О Гусейне Гусейнзаде и его произведении «Байан ул-хагг»

**Джаваншир Алибейли***
**Аслан Габибов****

**Абстракт.** В XIX-XX веках Царская Россия в оккупированных странах внедряла политику христианизации мусульманских народов, заставляя их забывать свою национальную идентичность и язык. Такая политика проводилась также против мусульманского тюркского населения Южного Кавказа. В данной политике царская Россия впоследствии использовала представителей армянского населения, которое она разместила на тюркских, мусульманских землях Кавказа, древнего Азербайджана. Они без колебаний внесли свой вклад в эту политику. Интеллигенция нашего народа, представители буржуазии знали о колониальной политике царской России, в своей борьбе они пользовались возможностями времени и обстоятельств. Эта борьба велась главным образом в сфере образования. Потому что колониальная политика царской России реализовывалась путем образования.

Несмотря на давление царской России, национальная интеллигенция при финансовой поддержке представителей буржуазии открыла школы во многих частях Азербайджана, в которых преподавался туркский язык. «Нашри Маариф» была одной из таких школ. Гусейн Гусейнзаде был одним из сотрудников этого учреждения, ученым-просветителем, отличившимся заслугами на пути учебы своего народа.

Гусейн Гусейнзаде жил в городе Шуша Карабаха во второй половине XIX - начале XX века. Он был директором одной из школ города Шуша, функционировавшей при обществе «Нашри Маариф».

В статье даны сведения о его жизни и творчестве, а также о его произведении «Байан ул-хакк», в котором освещены ответы на трактат армянского востоковеда Амира Ханьянса, утверждавшего об искажении Корана.

**Ключевые слова:** Гусейн Гусейнзаде, Коран, Байан ул-хакк, тахриф, Амир Ханьянс

---

* Аспирант Азербайджанского Института Теологии; Баку, Азербайджан (ответственный автор)
E-mail: cavansirelibeyli1994@gmail.com
https://orcid.org/0009-0000-8349-6280
** Доктор философии по теологии, доцент,
Научный сотрудник Института Востоковедения имени академика З.Буниятова, НАНА; Баку, Азербайджан
E-mail: aslanhabibov@ait.edu.az
https://orcid.org/0000-0002-3016-3324

**Цитировать статью:** Алибейли, Дж. & Габибов, А. [2024]. О Гусейне Гусейнзаде и его произведении «Байан ул-хагг». *Журнал «Metafizika», 7(3),* с.134-144.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.134-144

***История статьи:***
*Статья поступила в редакцию: 17.05.2024*
*Отправлена на доработку: 20.06.2024*
*Принята для печати: 08.07.2024*

AcademyGate Publishing
p-ISSN 2616-6879; e-ISSN 2617-751X

**UOT:** 1 (091).
**KBT:** 86.39
**MJ №** 226
10.33864/2617-751X.2024.v7.i3.134-144

# Hüseyn Hüseynzadə və onun “Bəyan ul-həqq” əsəri haqqında

**Cavanşir Əlibəyli***
**Aslan Həbibov****

**Abstrakt.** XIX-XX əsrlərdə Çar Rusiyası işğal etdiyi ölkələrdə müsəlman xalqlarını xristianlaşdırma, onların milli kimliyini, dilini unutdurmaq siyasətini tətbiq edirdi. Həmin bu siyasət Cənubi Qafqazın müsəlman türk əhalisinə qarşı da aparılırdı. Bu siyasətdə Çar Rusiyası sonradan Qafqazda, qədim Azərbaycan, türk müsəlman torpaqlarında yerləşdirilən erməni əhalisinin nümayəndələrindən də istifadə edirdi. Onlar da bu siyasətə töhfə verməkdən çəkinmirdilər. Xalqımızın ziyalıları, burjuaziya nümayəndələri Çar Rusiyasının apardığı bu müstəmləkəçilik siyasətinin fərqində idilər, dövrün və şəraitin verdiyi imkanlarla bu siyasətə qarşı mübarizə aparırdılar. Aparılan bu mübarizə əsasən təhsil sahəsində idi. Çünki Çar Rusiyası da öz müstəmləkəçilik siyasətini təhsil vasitəsi ilə həyata keçirirdi.

Çar Rusiyasının təzyiqlərinə baxmayaraq ziyalılarımız burjuaziya nümayəndələrinin maliyyə dəstəyi ilə Azərbaycanın bir çox yerlərində türk dilində təhsil verən məktəblər açırdılar. Açılan bu məktəblərdən biri də “Nəşri Maarif” məktəbi olmuş və burada xalqın maariflənməsi uğrunda xidmətlərini göstərmiş maarifçi ziyalılarımızdan biri də Hüseyn Hüseynzadə idi.

XIX əsrin ikinci yarısı - XX əsrin əvəllərində Qarabağın Şuşa şəhərində yaşamış Hüseyn Hüseynzadə burada məktəb işinin təşkili və maarifçilik sahəsində xidmət etmişdir. O, “Nəşri Maarif” Cəmiyyətinin Şuşa şəhərində fəaliyyət göstərən məktəblərindən birində direktor olmuşdur. Məqalədə onun həyatı və erməni şərqşünas Əmir Xanyansın Quranın təhrifini iddia etdiyi risaləsinə cavab olan “Bəyan ul-həqq” əsəri haqqında məlumat verilib.

**Açar sözlər:** Hüseyn Hüseynzadə, Quran, Bəyan ul-həqq, təhrif, Əmir Xanyans

* Azərbaycan İlahiyyat İnstitutunun magstrantı; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: cavansirelibeyli1994@gmail.com
https://orcid.org/0009-0000-8349-6280
** İlahiyyat üzrə fəlsəfə doktoru, dosent,
AMEA, akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun elmi işçisi; Bakı, Azərbaycan
E-mail: aslanhabibov@ait.edu.az
https://orcid.org/0000-0002-3016-3324
**Məqaləyə istinad:** Əlibəyli, C., & Həbibov, A. [2024] Hüseyn Hüseynzadə və onun “Bəyan ul-həqq” əsəri haqqında. *“Metafizika” jurnalı, 7*(3), səh.134-144.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.134-144

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 17.05.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 20.06.2024*
*Çapa qəbul edilmişdir: 08.07.2024*

## 1.Giriş

20-əsrin əvvələrində Azərbaycan burjuaziyasının nümayəndələri, xeyriyyəçi və maarifçilər Çarizmin Azərbaycanın müsəlman əhalisini ruslaşdırma və xiristianlaşdırma siyasətinə qarşı olaraq müsəlmanların savadının artırılması və onların türk dilində təhsil alması üçün bir neçə maarif cəmiyyəti, kitabxana və qiraətxanalar təşkil edirdilər. Bu təşkilatlardan biri də “Nəşri-maarif” cəmiyyəti olmuşdur. Bu cəmiyyət 1906-cı ildə fəaliyyətə başlamışdır. [Məmmədova, 2003. s.27]

Çar Rusiyası qeyri rus xalqlarının savadlanmasını təhlükəli hesab etmiş buna görədə “Nəşri-maarif” və bu kimi təşkilatların fəaliyyətində çətinliklər yaranmışdır. Bütün bu çətinliklərə baxmayaraq Nəşri Maarif cəmiyətinin Azalərbaycanda Çar Rusiyasında və digər başqa ölkələrdə də fəaliyyət göstərmişdir. Bu fəaliyyətlərin sayəsində müsəlman əhalisinin təhsil səviyyəsi yüksəlmiş və onların arasında həmrəylik artmışdır. [Məmmədova, s.5]

Bu məktəblərdə təhsil alan şagirdlər sinifdən sinifə keçərkən imtahan olunurdular. Eyni zamanda şagirdlərin dünya görüşünün artırılması və təlim tərbiyəsinin təşkili üçün sinifdənkənar məşğələlər təşkil olunurdu. Cəmiyyətin məktəblərində şagirdlərə şəriət, ana dili, rus dili, hesab, tarix, coğrafiya, biologiya, astronomiya və.s elmlər haqqında ibtidai biliklər verilirdi. Eyni zamanda bu cəmiyyət milli müəllim kadrarının yetişdirilməsinədə öz tövhəsini vermişdir və Darulmüəllimin müsəlman müəllim seminaryasının yaranmasına nail olmuşdur. [Məmmədova, s.6]

Cəmiyyətin Şuşa şəhərində 1913-cü ildə iki fəxri, on üç nəfər ömürlük, yüz yetmiş dörd nəfər həqiqi üzvü olmuşdur. Burada dörd ibtidai məktəb var idi və iki yüz altı şağird təhsil alırdı. [Məmmədova, s.48]

## 2.Hüseyn Hüseynzadənin həyatı və yaradıcılığı

Hüseyn Hüseynzadə 1851-ci ildə Şuşa şəhərində Gəlmələr məhəlləsində anadan olmuşdur. İbtidai təhsilini molla yanında almışdır. Heydərzadələr soyundandır. Hüseyn Hüseynzadənin əsl adı Dadaş bəy Həsənbəy oğlu olmuşdur. [Çingizoğlu, 2013 s.96] Yusif Vəzir Çəmənzəminlinin verdiyi məlumata görə gəncliyində cinayət işləyib İrana qaçmış burada tutduğu əməllərdən peşman olmuşdur. Daha sonra burada yüksək dini təhsil almış Şeyx Hüseyn adını qəbul edərək yenidən Şuşa şəhərinə qayıtmışdır. [Çəmənzəminli, Əsərləri, 3-cü cild, 1977, s.289]

Professor Zeynal Tağızadənin verdiyi məlumata əsasən Hüseyn Hüseynzadə bu “Nəşri-maarif” cəmiyyətinin Şuşa şəhəri üzrə məktəblərindən birində müdür vəzifəsində işləmişdir. Z. Tağızadə yazır: “Məni Şuşada açılan “Nəşri-maarif” məktəbinə babam apardı. Bu məktəb aşağı məscidin binasında idi. Hücrələrin arasını açıb iki böyük dərs otağı eləmişdilər, qalanları yenə də

balaca, qaranlıq idi. Bir tərəfdə də uzaq yoldan gələn tələbələr yaşayırdılar. Məktəbin müdiri şeyx Hüseyn Heydərzadə (Əbdürrəhim bəy Haqverdiyevin Şeyx Şəban əsərindəki prototipi idi) savadlı idi. [Tağızadə, Zeynal, 2011, s.26]

Azərbaycanda Bəhailik nisbətən geniş yayıldığından Hüseyn Hüseynzadə bəhai kimi tanınsada əslində şeyxilik cərəyanına mənsub olmuşdur. O İranda olduğu dövrdə burada şeyxilik geniş yayılmışdı. Şeyxilik təriqətini qəbul etməsinə səbəb də burada şeyxi alimlərdən dərs alması ola bilər.

Şeyxilik cərəyanın əsası miladi 1753-cü ildə (h.1166) Bəhreyndə dünyaya gələn Şeyx Əhməd Əhsai tərəfindən qoyulmuşdur. Şeyx Əhməd Əhsai Kərbəlada "Ağa Baqir Behbəhani", "Seyyid Mehdi Bəhrul-ulum", "Şeyx Cə’fər Kaşiful-Ğita" və bu kimi digər görkəmli şəxsiyyətlərdən dərs almışdır. 1794-cü ildə müctəhidlik məqamına çatmışdır. Daha sonralar Şeyx Əhməd İmamlar barəsindəki fikirlərinə görə təfvizdə, həmdə axirətdəki dirilişin cismani deyil ruhi diriliş olması ilə bağlı kafirlikdə ittiham olunmuşdur. [Uyar, Türkiyə, 2004, s.164]

**3.Bəyani-həqq əsəri haqqında**

Erməni kilsəsinin rəhbərliyi altında qədim dövrlərdən etibarən ermənilər hər zaman Qafqazda müsəlman əhalisinin erməniləşdirilməsi və xiristianlaşdırılması siyasətini yürütmüşdür və bu siyasət Çar Rusiyasının zamanındada onlarında dövlət marağına uyğun olmuş və bu siyasətə dəstək vermişlərdir.

Çar Rusiyasında çox sayda erməni şərqşünası və missioneri fəaliyyət göstərmiş və bu missiyaya öz töhfələrini vermişlərdir. Onlar yazdıqları əsərlərdə, tərcümələrdə İslama, müsəlmanlara, Qafqaz Albanyasının tarixinə dair qərəzli mövqelərin ortaya qoymuşlardır. Bunlara nümunə kimi N.Emin, Q.A. Ezov, K. Patkanov, Əmir Xanyans kimi şərqşünas və missionerləri nümunə göstərmək olar. Bu şəxslər əsasən xıx-xx əsrdə fəaliyyət göstərmişlərdir. Erməni missionerlərinin müsəlman əhalisini xristianlaşdırma, İslamın inanc əsaslarına zərbə vurmaq üçün göstərdikləri fəaliyyətlərinə bir nümunədə şərqşünas Əmir Xanyansın Qarabağdakı missioner fəaliyyətidir. Beləki Əmir Xanyans Qurani-Kərimin təhrif olunduğunu iddia edərək “Tövrat və İncilmi tərif olunub, yoxsa Quran”? adlı bir risalə yazmışdır. Əmir Xanyansın bu fəaliyyətindən Qarabağın müsəlman əhalisi narahat olmuş və müsəlman din xadimlərindən bu məsələyə cavab vermələrini istəmişlərdir. Hüseyn Hüseynzadədə bu işi öz öhdəsinə götürmüş və bu risaləyə Bəyani-Həqq adlı əsəri ilə cavab vermişdir. [Fərhadov, 2015, s.54]

Bu məsələ ilə bağlı Hüseyn Hüseynzadə əsərinin girişində yazır:

*“İki il bundan əqdəm yəni hicri tarixinin 1326-cı sənəsində Badu-Kubə də nəşr olunan milli qəzetlərin birində səkkiz nəfər imzalı bir məqalə oxudum. Hasili budur ki: Məqalə sahibləri (Şişa üləmasına xitabən ərz etmişdilər ki, cənablar! (Əmir Xanisyan) namlı bir nəfər İsavi, Quranın əleyhinə bir risalə yazıb həmən risalədə iddia eliyir ki, həmən Quran təhrif olunubdur. Yəni ondan çox ayələr götürülübdür. Və ona tağyir və təbdil verilibdir.*

*İndi bu sözlər, bizləri Quran barəsində çox müztərib eliyir. Bina aleyh siz cənablardan rica edirik ki, risaləyəyi-məzkurəyə bir cavab yazasınız ta ki bizim kimi elmsiz müsəlmanlar Quran barəsində müztərib olmasınlar. Və əgər bu barədə müsamihə edib cavabi kafi yazmasanız çox ola bilər ki, biz Quran barəsində şəkk və şübhə eliyib islamiyyətdən xaric olaq. Yəqinən ki, o vaxt qiyamət günündə məhkəməyi ədliyeyi ilahiyyənin hüzurunda fəqət siz cənablar məsul olasınız. Çünkü müşarunileyh yazdığı risalə, diyanəti İslamiyyəyə irad və etirazdır. Və məlumdur ki, dinə, məzhəbə olunan iradları və etirazları müdafiə etmək ancaq siz ağalar öhdənizə götürmüsünüz”.* [Hüseynzadə, 1912. s.2]

Hüseyn Hüseynzadənin yazdığı bu əsər Azərbaycan Milli Kitabxanasında saxlanılır və elektron formadada əldə etmək mümkündür. Əsər 1912-ci ildə Qarabağlı mülkədar eyni zamanda Şuşa şəhər dövlət ibtidai məktəbinin fəxri nəzarətçisi Cahangir xan Nurubəyov tərəfindən Kaspi mətbəsində çap olunmuşdur. [Tağızadə, Zeynal., 2011, s.26]

Əsər giriş, müqəddimə, üç fəsl və sonda Əmir Xanyansa cavabdan ibarətdir. Əsərin birinci fəsli Tövrata dair adlanır. Burada Tövratın təhrif olunmasına dair müxtəlif dəlillər gətirilir. Bu dəlillər Tövratın öz daxilindəki xronoloji uyğunsuzluqlar, Yəqub, İsa, Musa, Lut və s. peyğəmbərlərnən bağlı insan ağlına və fitrətinə uyğun olmayan qissələrin mövcud olması ilə bağlıdır. Eyni zamanda Qurani-Kərimdə Tövratın təhrif olunmasına dair ayələr və Xiristian teoloqlarının əsərlərindən sitatlar gətirilir.

İkinci fəsl İncilə dair adlanır. Bu fəsildədə İncilin daxilində mövcud olan uyğunsuzluqlardan, Qurani-Kərimdən ayələr və yenə məsihi olan teoloqların əsərlərindən sitatlar gətirilmişdir.

Üçüncü fəsildə Qurana dair adlanır. Bu fəsildə Əmir Xanyansın risaləsindəki iddialara məntiqi cavablar və İslam ülamansının verdiyi cavablar yer alır.

**3.1.Təhrif məsələsi ilə bağlı nəzəri**

Üçüncü fəslin başlanğıcında ilk olaraq təhrifin növlərindən İslam alimlərinin bu məsələyə baxışından bəhs edir. Daha sonra Quranın təhrifi ilə bağlı hədis mənbələrində mövcud olan hədislərin etibarlılıq məsələsinə toxunur. Bu hədislərin məzhəbindən asılı olmayaraq bütün İslam alimləri tərəfindən səhih olaraq qəbul edilmədiyini bildirir. Və əgər səhih hədislər

mövcud olsa belə onlar Qurani Kərimin Hicr surəsinin 9-cu ayəsi ilə zidd olduğu üçün qəbul edilməməli olduğunu bildirir. *"Biz müsəlmanlar din böyüklərimizə nisbət verilmiş hər bir hədisi və hər bir xəbəri gərək əvvəlcə mülahizə edibdə görək ki, o hansı sifətdəndir? Əgər səhih deyilən sifətdən olmayıbda o biri sifətlərdən olmuş olsa ona əbədən etina etməyək. Və əgər səhih sinifindən olmuş olsada gərək ikinci dəfə onu mülahizə edib görək ki, o əql ilə və Quran ilə müvafiqdirmi yoxsa yox? Əgər müxalif olsa milləti-İslamiyyənin kafisinə vacib və lazımdır ki, ona etina etməsin. Və əgər müvafiq olsa Quran ayələri kimi gərək ona etibar və etimad edək".* [Hüseynzadə, 1912. s.72]

Bu cür hədislərin mövcud olma səbəbini isə müşriklərin və münafiqlərin İslama zərbə vurmaq onun kitabını etibarsız göstərmək cəhdi kimi qiymətləndirir. Və hətta onların buna Peyğəmbərin zamanındada cəhd etdiyini bildirir. Hüseynzadə daha sonrakı səhifələrdə İslam alimlərinin müşriklərin bu əməllərindən xəbərdar olduqlarını və bunun qarşısını alan fəaliyyətlərindən bəhs edir. *"Və o kitabları mülahizə edən kəslər doğruçu hədislər ilə yalanını bir-birindən fərqləndirə bilmirdilər. Lakin şükürlər olsun ki, onlar öz məqsədlərinə nail ola bilmədilər. Çünki İslam alimlərindən ən mühəqqiqləri və müdəqqiqləri onların hiylələrinə mültəfit olubda o hiylənin qabağına möhkəm sədlər çəkdilər. O şəxslərdən biri "Rical" elmi və "Dirayə" elmi adında iki kitab yazdı.*

*Onlardan birində Peyğəmbərimizdən (s) və onun həqiqi xəlifələrindən hədislər və xəbərlər nəql edən şəxslərin əqidələrindən, məsləklərindən və kim olduqlarından bəhs olunur. Demək ki, o fənnin sayəsində məlum olur ki, filan hədis və ya filan xəbəri nəql edən şəxs münafiqimiş və ya mömin, və özüdə adilimiş ya fasiq və.s. Bu məsələlərin hamsı o fənndə həll edilir. O biri fənndədə həmin kitablarda nəql olunmuş hədislərin və xəbərlərin sifətlərindən bəhs olunur. Və onlar səhih, mötəbər, mürsəl, mərfu, musəq, zəif və.s kimi adlar ilə iyirmidən artıq sifətlərə bölünür. Bu qədər sifətlərdən etibar və etimad olunacaq birinci sifətdir. Yəni "səhih" deyilən sifət".* [Hüseynzadə, 1912. s.71-72]

Sonrakı səhifələrdə Hüseyn Hüseynzadə Əmir Xanyansın öz risaləsindəki iradlarına cavab verməyə başlayır. Xanyansın öz risaləsində qeyd etdiyi Quran özü İncil və Tövratı təsdiq etdiyi halda müsəlmanların bu kitabların təhrif olunduğunu necə iddia edə bilirlər sualına cavab verir. Quranın təsdiq etdiyi kitabların peyğəmbərlərə nazil olan kitablar olduğunu bildirir. Hazırkı İncil və Tövrat nüsxələrinin isə Büxtünəsərin işğalı və Antiyuxusun Yəhudilərə soyqırımı zamanı məhv edildiyini və hazırkı nüsxələrin kimliyi bəlli olmayan insanlar tərəfindən yazıldığını bildirir. *"Möhtərəm əfəndi! Əffinizi rica eliyibdə ərz edirəm ki, Quran bunlardan heç birini təsdiq etmir.*

*Bəlkə O Kitabi-Müqəddəs fəqat Allah-Təala tərəfindən Hz. Musa (ə) nazil olmuş Tövratı-Cəlili və Hz. İsa (ə) nazil göndərilmiş İncili şərifi təsdiq eləyir. Və biz Millәti-İslamiyyədə Quranımıza tabe olaraq O möhtərəm kitabları qəlbdən təsdiq edirik. Lakin Quranımızın və bizim bu təsdiqimizin indi mövcud olan Tövratilə Mattaya, Markusa, Lukaya və Yuhənnaya mənsub olan İncillərlə heç bir rabitə və dəxli yoxdur. Cənabınıza məlum edirəm ki, belə mülahizələrlə əqillərinin gözü kor olan nadanları əğfal edə bilərsiniz nəin ki, Quranın nuru və ziyası vasitəsilə qəlblərinin gözü parlaq və bina olan müsəlmanların".* [Hüseynzadə, 1912. s.80]

Hüseynzadənin məlumat verdiyi Büxtünnəsərin hücumu belə olmuşdur ki, miladdan əvvəl 586-cı ildə Babil padşahı II Novuxodonosor (Büxtünnəsər) Qüdsə hücüm etmiş burada mövcud olan Yəhudi padşahlığına son qoymuş şəhər dağıdılmışdır. Çox sayda insan öldürülmüş, qalanlarıda əsiredilərək məbəd xəznələri ilə birlikdə öz ölkəsinə aparmışdır. Bu işğal e.ə 538-ci ilə qədər davam etmişdir. E.ə 538-də Fələstin Əhəmənilər dövlətinə tabe etdirilmişdir və buranı Büxtünnəsərdən İran hökmdarı Kuruş azad etmiş və Yəhudilərin geri qayıtmasına, Süleyman məbədini yenidən inşa etdirməsinə icazə vermişdir. [Quliyev, 2012, s.121]

Antiyuxusun əməllərinə gəlincə Suriya hakimi III-cü Antiyuxus miladdan əvvəl 198-ci ildə Misiri məğlub edərək Fələstini Suriya-Yunan dövlətinə birləşdirdi. Yəhudilər bu işğal səbəbi ilə Yunan mədəniyyətini, adət-ənənələrini, dilini mənimsədilər. IV-cü Antiyuxusun zamanında Yəhudilərə təzyiqlər dahada artmışdı. Belə ki, Yəhudilər üçün müqəddəs məbəd olan Süleyman məbədində yunan bütlərinə qurbanlar kəsilməyə başlanılmışdı. Bu ortadoks yəhudilərin etirazına və inqilablarına səbəb olmuşdur. [Quliyev, 2012, s.122]

**3.2.Nəsxlə bağlı nəzəri**

Əsərin sonrakı səhifələrində Əmir Xanyansın nəsxlə bağlı iradına cavab verir. Burada ilk olaraq nəsxin növlərindən, müsəlman alimlərin bu məsələ haqqındakı fikirlərindən bəhs edir: *"Məlum ola ki, nəsx sözü ərəb kəliməsidir. Bu kəlimə ülamayi-İslamiyyənin istilahlarında "sabiqan sabit olmuş bir hökmü sonradan rəf etmək" mənasındadır. Kəlamı-axarla istilahca nəsxin mənası budur ki; "Allah-Təala bəzi hikmət və məsləhət mülahizəsinə görə bir şey üçün müvəqqəti olaraq bir hökm buyura, sonra o hökmün vaxtı tamam olduğuna görə onu dəyişdiribdə əvəzində başqa bir hökm eliyə! Belə bir əmələ nəsx deyilir. Və bu sürətdə əvvəlinci hökmə mənsux və ikinciyədə nasix adı verilir".* [Hüseynzadə, 1912. s.96]

Sonra Əhli kitabın nəsxi qəbul etmədiyi halda İncil və Tövratın özündən istifadə edərək bu kitablardada nəsxin olduğunu bildirir. Dəlil kimi isə Musa (ə) şəriətində şənbə gününün ibadət üçün ayrıldığını, İsa (ə) şəriətində bunun

bazar gününə dəyişdirildiyini, Musa (ə) şəriətində kişilərin sünnət olunmalı olduğunu, İsa (ə) şəriətində isə belə bir hökmün olmadığını, Yəqubun (ə) şəriətində iki bacını ilə eyni vaxda evlənilə bilinəcəyi halda Musa (ə) şəriətində bunun aradan qaldırıldığına və.s göstərir.

Daha sonra Hüseyin Hüseyinzadə əhli kitabın müsəlmanları İlahi kitablarda nəsxin varlığını qəbul etdikləri üçün tənqid etməsinə baxmayaraq əhli kitabın özünün elə bir nəsxə inandıqlarını bildirir ki, müsəlmanlar belə bir nəsxi əsla qəbul etməzlər. Belə ki məsihilərin Allahın peyğəmbərlik və İlahi kitab vermədiyi Polos adınddakı bir şəxsin Allahın hökmünü öz həvayi nəfsi ilə nəsx etdiyini qəbul etdiklərini bildirir: *"Beləki bu məsələ müşarunileyhin Koloslulara yazdığı risaləsinin 2-ci babının 16-cı ayəsindən anlaşılır. "16. Buna görə qoy heç kim yemək içmək üzündən yaxud bayram, Təzə Ay mərəsimi və ya Şənbə gününə görə sizi mühakimə etməsin". Deməkki məsihilərin etiqadınca ayə ilə sabit olmuş hökmü-İlahini Polos cənabları bircə sözü ilə pozmuşdur və onlarda həmin ayələrin hamısını buraxıbda fəqat müşarinileyhin həmən bircə sözünə itaət etmişlər və edirlər. Bununla bərabər Əmir Xanyans cənabları kimi misyonerlər biz milləti-İslamiyyənidə belə bir təriqəyə dəvət edirlər. Əcaba belə bir dəvət qəbul olunarmı. Haşa!".* [Hüseynzadə, 1912. s.101]

Hüseyn Hüseynzadə nəsxin varlığına məntiqi dəlil kimi isə belə bir fikir bildirir: *"Sabiqan bəyan olundu ki, əhli-kitab üləmasının nəsxi inkar etmələrinin cəhəti budur ki, onlar belə zəmm etmişlər ki, əgər nəsx caiz olsa onda lazım gəlir ki, Allah-Tala cahil olmuş ola! Buki qeyri mümkündür. Nəsxdə qeyri mümkün olmalıdır. İndi cavaba ərz edirəm ki, ülamayi-İslamiyyənin qail olduqları nəsxdən lazım gəlmir ki, Allah-Tala cahil olmuş ola. Necə ki, müşarunileyh elə zəmm edibdə onlara etiraz etmişlər. Lakin bu məsələnin dürüst vazeh olmasından ötrü lazımdır ki, bir misal izah edəm: cümləyə məlumdur ki, təbiblər bir nəfər naxoşa əvvəldən axıra kimi fəqət bir dəva verməklə müalicə etməyirlər. Belə ki, ona cürbə-cür dəvalar verirlər. Və növbə-növ hökmlər verirlər. Və onların verdiyi hökmlərdən bəziləri vardır ki, onlar əbədən nəsx olunmazlar. Hər bir məkanda və hər bir zamanda onlara gərək riayət olunsun. Bunlar məsələn havanın, libasın, yeyilən, içilən şeylərin təmiz və pakizə olmaqlarından ibarətdir. Təbiblər bunlara və bunlar kimi şeylərə verdikləri hökmləri əbədən nəsx etməzlər. Onlar dünya durduqca durasıdırlar. Və bəzi hökmlərdə vardır ki, onlar nəsx olunarlar. Beləki biz görürük ki, bir nəfər təbib əvvəlcə bir naxoşa hökm edir ki, gərək filan dəvanı içsin. Və neçə gündən sonra gəlib onun halını mülahizə edəndə ona buyurur ki daha o dəvanı içməsin! Onun əvəzində başqa bir dəvanı içməyi hökm eliyir. Və həkaza"...* [Hüseynzadə, 1912. s.105]

Yəni Allah Taala nəsx vasitəsi ilə mahir həkimlərin xəstələri müalicə etdiyi kimi insanları və cəmiyyətləri islah etmişdir. Və bu cəhətdən baxıldıqda Qurani Kərim və İlahi kitablarda nəsxin olması Əhli-kitabın iddia etdiyi kimi Allahın Alim sifəti ilə ziddiyyət təşkil etmir.

**3.3.Şəri məsələlərdə ixtilaflarla bağlı nəzəri**

Daha sonra Hüseyn Hüseynzadə Əmir Xanyansın öz risaləsinin 22-ci səhifəsində yazdığı iddiaya cavab verir. *“Müsəlman üləması müttəfiq degildir. Onlardan sünni üləması Qurana görə deyirlər ki, məsihilərin xörəgi halaldır. Və şiələr deyirlər ki, haramdır”.* [Hüseynzadə, 1912. s.118]

Hüseynzadə Xanyansın bu iddiasının Quranın təhrifi məsələsinə aidiyyatının olmadığını bildirir. Ümumən alimlər arasındaki şəri hökmlərlə bağlı ixtilafların heç bir zaman Quranın təhrifinə dəlil ola bilməyəcəyin bildirir. Bu barədə Bəyani-Həqq adlı əsərində bunları qeyd edir: *“Bu məsələnin Qurani-Şərifin təhrif olunmağına əbədən rəbti və dəxli olmadığı əzhəru minəşşəmsdir. Bu cəhətə ki, ol həzəratın ixtilaflarına ancaq öz fəhmləri səbəb olmuşdur. Nəinki Quranın təhrif olunmağı! Bu səbəbə ki, cümləyə məlumdur ki, nəzmən və ya nəsrən bəzi kəlam olur ki, üləma və şüara o kəlamın mənasında və təfsirində bir-birləri ilə ixtilaf edirlər. Və onlardan hər biri onu öz fəhmində bir tür məna eləyir. Vazehdir ki, onların bir-biri ilə etdikləri bir ixtilafın əbədən dəlaləti yoxdur ki, həmən kəlam təhrif olunubdur. Və ondan bəzi kəlamlar götürülübdür. Belə ki, o kəlam öz tərkibində və öz heyyəti əsliyyəsində baqi olur ikən məhəlli ixtilaf vaqe olur. Və bu ixtilafa səbəbdə müşarunileyhlərin fəhmlərinin müxtəlif olmaqlarıdır. Və üləmanında Quran ayələrində bir-biri ilə ixtilaf etməkləri bu qəbldəndir. Yəni o ixtilafatın əbədən dəlaləti yoxdur ki, Quranda təhrif vaqe olubdur”* [Hüseynzadə, 1912. s.119]

**4.Nəticə**

Bütün işğalçı dövlətlər kimi Çar Rusiyasıda işğal etdiyi torpaqlarda qeyri-rus xalqlarının savadlanmasının, inkişafının qarşısını almağa, onların müsəlman-türk kimliyini unutdurmağa çalışmış bunun üçün müxtəlif yol və vasitələrdən istifadə etmişdir. Bunun üçün erməni əsilli şəxslərin fəaliyyətindəndə istifadə etmiş onlara şərait yaratmışdır.

Azərbaycan ziyalıları da yürüdülən bu siyasətin fərqində olmuş bununla mübarizə aparmışlar. Azərbaycanlı ziyalı və burjuvaziya nümayəndələri türk-müsəlman əhalisinin öz ana dilində təhsil alması, öz dinini öyrənə bilməsi, müsair elmlərə yiyələnə bilməsi üçün məktəblər təsis etmişdirlər. Bu məktəblərdən biri Nəşri-Maarif cəmiyyəti olmuş və bu siyasətə qarşı mübarizə aparan ziyalılardan biridə Hüseyn Hüseynzadə olmuşdur. O yazdığı Bəyani-Həqq əsəri ilə erməni şərqşünasının İslam dini əleyhinə fəaliyyətinə cavab vermiş və əsərində həmin dövrə işıq tutmuşdur.

Həmin əsərdə H. Hüseynzadə Ə. Xanyansın Tövratın və İncilin təhrif olunmamasına dair gətirdiyi iddialara həmin kitablarda olan uyğunsuzluq və özü məsihi və yəhudi olan teoloqların əsərləri ilə cavab vermişdir. Eyni zamanda Ə. Xanyansın Qurnai-Kərimdə təhrifin olması, toplanması, Quranda nəsxin olması və İslam alimlərinin bunu qəbul etməsi, İslam Peyğəmbərinin ümmi olması ilə bağlı tənqid və iradlarına cavab vermişdir.

## ƏDƏBİYYAT

**1.** Qurani-Kərim. (n.d.).
**2.** Bibliya. (2018). *Azərbaycan Bibliya Cəmiyyəti*. Baku.
**3.** İncil. (2021). *Azərbaycan Bibliya Cəmiyyəti*. Baku.
**4.** Hüseynzadə, H. (1912). *Bəyani-Həqq*. Baku: Kaspi.
**5.** Quliyev, İ. Z. (2012). *Hədisi-şəriflərdə müqəddəs şəhərlərin tarixi*. Baku.
**6.** Məmmədova, N. Ə. (2003). *Nəşri-Maarif cəmiyyətinin yaranması və fəaliyyəti*. Baku.
**7.** Çingizoğlu, Ə. (2013). *Qarabağda Maarif*. Baku.
**8.** Çəmənzəminli, Y. V. (1977). *Əsərləri III-cü cild*. Baku: Elm.
**9.** Tağızadə, Z. (2011). *Ömrün üfüqləri*. Baku: Səda.
**10.** Mazlum, U. (2004). *Şii ulemanın otoritesinin temelleri*.
**11.** Fərhadov, Ə. (2015). *Şimali Azərbaycanda erməni missionerliyi tarixindən*.

## REFERENCES

**1.** The Quran. (n.d.). (in Azerbaijani)
**2.** Bible. (2018). *Azerbaijan Biblical Society*. Baku. (in Azerbaijani)
**3.** Bible. (2021). *Azerbaijan Biblical Society*. Baku. (in Azerbaijani)
**4.** Huseynzadeh, H. (1912). *Bayani-Haqq*. Baku: Kaspi. (in Azerbaijani)
**5.** Guliyev, I. Z. (2012). *The history of sacred cities in Hadith.* Baku. (in Azerbaijani)
**6.** Mammadova, N. A. (2003). *The establishment and activities of the Nashri-Maarif Society*. Baku. (in Azerbaijani)
**7.** Chingizoglu, A. (2013). *Education in Karabakh.* Baku. (in Azerbaijani)
**8.** Chamanzaminli, Y. V. (1977). *Works, Volume III.* Baku: Science. (in Azerbaijani)
**9.** Taghizadeh, Z. (2011). *Horizons of life.* Baku: Seda. (in Azerbaijani)
**10.** Mazlum, U. (2004). *The foundations of Shia clerical authority.* (in Turkish)
**11.** Farhadov, A. (2015). *On the history of Armenian missionary activities in Northern Azerbaijan.* (in Azerbaijani)